# 1 oktyabr - bizim bayram günümüz
## sözümün canı Xələfli



## Bu, bizim Baş redaktorumuz Əli Rza XƏLƏFLİNİN ad günüdür

Nə qədər də asandır tanıdığın birindən danışmaq, yazmaq. Bəzən də bu çətin olur. Bəlkə də kifayət qədər tanımamaqdan, bəlkə də danışılası müsbət bir tərəfi olmadığından irəli gələr bu. Mənim danışacağım insan isə tanıdığım, hər gün yeni bir xüsusiyyətini kəşf etdiyim insandır. Həmişə yeni insanlar tanımağı, yeni ünsiyyətlər qurmağı, həm də tanıdığım insanları müşahidə etməyi, bilmədiyim xüsusiyyətlərini öyrənməyi sevmişəm. Əli Rza müəllimin də hər gün yeni bir xüsusiyyətinin şahidi oluram. Məncə ideal insan yoxdur, yaxşı insanlar və zamanla özləridə bilmədən ürəkləri kin-küdurətlə dolan insanlar var. Əli Rza müəllim həmən o az-az rastlaşdığımız yaxşı insanlardandır. İnsanlara əl tutmagı, böyüklə böyük, kiçiklə kiçik olmağı bacaran insanlardandır. Yaxşı şair, yaxşı ailə sahibi işdə isə o bizə müdürdən çox özü də dediyi kimi babadır. Həmdə o həmən yaxşi insanlardandır. "Kredo" da işə başladığımdan bəri işi bilmədiyim, düzgün etmədiyim, anlamadığım vaxtlarda belə Əli Rza müəllim heç vaxt əsəbləşməz, əksinə tezliklə öyrənəcəyimə, yaxşı işçi olacağıma məni də inandırır, ruhlandırırdı.

Deyə bilmərəm ki, kitablarının hamısını oxumuşam, amma "Kredo" da işlədiyim bu vaxt ərzində onun yaradıcılığı şeirləri, yazdığı, mənim də oxuduğum, çox da bəyəndiyim romanları, şeirleri haqqında az-çox məlumatım var. Məncə İstedad doğulanda insana Allah tərəfindən verilir. Əli Rza müəllim də istedadlı doğulan insanlardandır...

Bunun bariz nümunəsi onun əsərləri, yazdığı onlarca kitablarıdır. Və hələ nə qədər çapa getməmiş əsərlərin də müəllifidir. Əsərləri orijinal, orjinal olduğu qədər də maraqlıdır.

Təbii ki, bu, həm də təkcə istedadla bağlı olan bir hal deyil. İnsan öz üzərində işləməli, daim inkişafda olmalıdır ki, bunu da mən Əli Rza müəllimdə çox müşahidə etmişəm. Hər gün nə qədər mütaliə etdiyini, yeni bilgilər topladığını, topladığı bilgiləri araşdırdığını, dəqiqləşdirdiyinin şahidi olmuşam.

1 oktyabr Əli Rza müəllimin ad günüdür. Bu il 67 yaşı tamam olur. Bu yazını da məhz ad günü ilə bağlı hazırlamışam. Mükəmməl olmaya bilər. Həmişə o bizə deyir ki: "Hamı mükəmməl olaraq başlamır, mükəmməl olmaq üçün isə hardansa başlamalısan". Ad gününüz mübarək böyüklüyündə ucalıq, ucalığında böyüklük olan şəxs. Arzularınız çin, ömrünüz uzun, sevdikləriniz yanınızda olsun. Əziz Əli Rza müəllim.

***Hədiyyə*** Nemətzadə

